# COCO MOYES

# *Səndən* ÖNCƏ *mən*

Tərcüməçi:
Fidan Cəfərzadə

qanun nəşriyyatı

JOJO MOYES

# *Me* BEFORE *you*

Onların ortaq heç nəyi yoxdur.

Luiza Klark adi bir həyat yaşayan, öz balaca kəndindən bir addım belə qırağa çıxmayan sadə qızdır. O, işə ehtiyacı üzündən qəza nəticəsində ömürlük əlil arabasında yaşamağa məhkum olmuş Vill Treynora baxmaq məcburiyyətindədir. Vill dəbdəbəli həyat yaşayıb. Bütün həyatı ekstremal idman növlərində, dünya səyahətlərində keçib – indi isə bu cür yaşamağa davam gətirməyəcəyinə əmindir...

"Səndən öncə mən" sevdiyiniz insanın sizin qəlbinizi qırdığını bilə-bilə "onu necə xoşbəxt etməli?" sualına cavab verən romantik əsəridir.

**Jojo Moyes** **ME BEFORE YOU**
**Coco Moyes** **SƏNDƏN ÖNCƏ MƏN**
Bakı, Qanun Nəşriyyatı, 2024, 496 səh.

Janr: fiction/roman
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 18.01.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Fidan Cəfərzadə
Redaktor: Əziz Rzazadə
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım
Korrektor: Flora Əliyeva

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-209-1

© Qanun Nəşriyyatı, 2016; 2024
Copyright © Jojo Moyes, 2012

This edition was published by arrangement with the
Curtis Brown Group Limited ("CB") of Haymarket House

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə
nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»
Azərbaycan Respublikasının Qanununa ziddir.

***Çarlza sevgilərlə...***

# Proloq

*2007*

O, vanna otağından çıxanda qız yuxudan oyanmışdı, balışlara dirsəklənərək çarpayısının yanındakı səyahət broşürlərinə göz gəzdirirdi. Əyninə Villin qolsuz köynəklərindən birini geyinmişdi. Uzun saçları ötən gecə yaşadıqlarına dair çox şeyi anladacaq qədər dağınıqdı. Vill ötən gecəni bir anlıq da olsa, xatırlayıb zövq aldı. Yaş saçlarını məhrəbayla qurulaya-qurulaya onun yanında dayandı.

Qız gözünü broşürdən çəkib dodaqlarını büzdü. Dodaqlarını büzmək üçün yaşı çox olsa da, birlikdə olma müddətləri elə də böyük deyildi, odur ki, bu dodaqbüzmə çox xoş görünürdü.

– Biz, həqiqətən də, dağlara dırmaşmalı, yaxud dərələr aşmalıyıq? Bu, ikimizə aid ilk tətildir. Birlikdə çıxdığımız ilk tətildir. Özümüzü bir yerdən atmadığımız, toxunma jaket geyinmədiyimiz bir gəzinti yoxdur.

Broşürləri çarpayının üstünə atan Lissa gündə yanmış qollarını başının üstünə qaldırıb gərnəşdi. Batıq səsi gecə yuxusuz keçirdiyi saatlardan xəbər verirdi.

– Lüks spa üçün Baliyə getmək necə olardı? Qumun üstünə uzanmaq, bir-birimizi oxşaya-oxşaya vaxt keçirmək, uzun və rahat gecələr...

– Mən belə tətillərə çıxa bilmərəm. Mən nəsə etmək istəyirəm.

– Məsələn, özünü təyyarədən atmaq kimi?

– Sınamadan qərar vermə.

Qız üzünü örtdü.

– Sənə görə fərqi yoxdursa, artıq qərarımı vermiş hesab edirəm.

Villin nazik nəm köynəyi bədəninə yapışmışdı. Saçlarına daraq gəzdirib mobil telefonunu açdı və balaca ekrana çıxan mesajlara göz gəzdirdi.

– Düzdür, getməliyəm. Nahar etməyi unutma, – dedi və onu öpmək üçün çarpayıya əyildi. Qadının ılıq bədənindən ətirli və olduqca şəhvani iy gəlirdi. O, qızın saçlarından gələn qoxunu içinə çəkdi və o da qollarını Villin boynuna dolayıb yatağa doğru çəkəndə ağlındakı hər şey bir anlıq da olsa, uçub getdi.

– Onda bu həftə sonu harasa gedirik?

– Görək nə danışırıq, – deyə Vill könülsüzcə yataqdan qalxdı. – İndi heç nə deyə bilmərəm. Ola bilsin ki, Nyu-Yorka getməli oldum. Yenə də cümə axşamı günü haradasa sənin seçdiyin bir restoranda gözəl nahar yeməyi yeyə bilərik.

O, əlini qapının arxasına qoyduğu motosiklet geyimlərinə uzatdı.

Qız gözlərini qıyıb soruşdu:

– Nahar? "Blackberry"də olacaq?

– Nə?

– Cənab "Blackberry" məni xanım "Goosberry" zənn edir. Hiss eləyirəm ki, sənin diqqətini çəkməyə çalışan üçüncü bir adam var, – deyə o acıqlandı.

– Səssizə qoyaram.

– Vill Treynor! – deyə qışqırdı. – Telefonu tamamilə bağladığın zamanlar da olmalıdır.

– Dünən gecə onu söndürdüm, elə deyilmi?

– Ancaq ağır təhdidlər altında olanda söndürürsən.

Vill gülümsədi.

– Belə oldu?

Dəri qiyafələrini geyinəndə, axır ki, Lissanın üzərinə buraxdığı təsirdən qurtulmuş oldu. Motosiklet geyimini götürüb çıxan Vill ona hava öpüşü göndərdi.

Telefonunda 22 mesaj vardı. Birincisi saat 3.42-də Nyu-Yorkdan gəlmişdi. Hüquqi məsələ ilə əlaqəli idi. Yeraltı avtodayanacağa gedən liftə mindikdən sonra gecə gələn xəbərlərlə nələrin baş verib-vermədiyini anlamağa çalışdı.

– Günaydın, cənab Treynor.

Təhlükəsizlik xidmətinin işçisi kabinetindən çıxdı. Bu, soyuqdan qoruyucu kabinet olsa da, əslində, burada heç qorunacaq hava yox idi. Vill çox zaman bu işçinin qapalı dövrəli televizorda və heç vaxt çirklənməyən 60.000 funt qiyməti olan avtomobillərin par-par yanan buferlərinə baxaraq saatlarla nə etdiyi barədə fikirləşirdi.

O, dəri gödəkcəsini geyib:

– Çöldə hava necədir, Mik? – deyə soruşdu.

– Çox pis. Leysan yağır.

Vill ayaq saxladı.

– Doğrudan? Yəni motosiklet havası deyil?

Mayk başını endirdi:

– Yox. Su çəkmələriniz yoxdursa, getməyin, əgər ölmək istəmirsinizsə.

Vill motosikletinə baxıb qiyafələrini çıxartdı. O, boş yerə riskə getməyi sevmirdi. Lissa əksini düşünsə belə... O, motosikletin ön tərəfindəki qutunu açıb geyimlərini ora qoydu və kilidlədikdən sonra açarları Mayka atdı. Mayk onları tək əliylə asanca tutdu.

– Qapı altındakı boşluqdan ata bilərsən?

– Problem deyil. İstəyirsiniz taksi çağırım?

– Yox, ikimiz də islanmayaq.

Mayk qapını avtomatik açan düyməni basdı və Vill əliylə təşəkkür edərək bayıra çıxdı. Səhərin ilk saatlarında hava qaranlıq və göy üzü gurultulu idi. Saat heç yeddinin yarısı olmasa da, Londonun mərkəzi hissəsində nəqliyyatın hərəkəti sıxlaşmışdı və maşınların axışı zəif idi. O, yaxalığını yuxarı qaldırıb yolayrıcına tərəf irəlilədi. Burada taksi tapmaq asandı. Yollarda yağış gölməçələri əmələ gəlmişdi və səkidən yola boz bir kölgə düşürdü.

Səki kənarında dayanmış kostyumlu insanları gördükcə özlüyündə onlara lənət oxumağa başladı. London əhli nə vaxtdan bəri belə tezdən ayılır? Hər kəs eyni şeyi fikirləşirdi.

"Hansı nöqtədə durum ki, yaxşı olsun", – deyə düşünərkən telefonuna zəng gəldi. Robertdir.

"Yoldayam. Taksi tapmağa çalışıram". Elə bu zaman yolun o biri tərəfindən narıncı işıqlı taksinin yaxınlaşdığını gördü və onu özündən başqa kimsənin görmədiyinə ümid edərək maşına tərəf getməyə başladı. Yanından gurultuyla bir avtobus keçdi və arxasınca əyləci cırıldayan yük maşını elə gəlib ötdü ki, o, Robertin dediyini eşitmədi.

– Səni eşidə bilmirəm, Rupe, – deyə qışqırdı. – Bir də deyə bilərsən?

Bir neçə dəqiqə sakit qaldıqdan sonra maşın karvanının içində yanan narıncı işığı görüb sürücünün bu leysanda onu görə biləcəyinə ümid edərək əlini qaldırdı.

– Nyu-Yorkda Ceffə zəng elə. Hələ yatmayıb, səni gözləyir. Dünən gecə səninlə əlaqə saxlamağa çalışırdıq.

– Nə olmuşdu ki?

– Hüquqi məsələ idi. Bir bölməyə aid olan iki müddəanı müzakirə edirdik. İmza... Sənədlər...

(Yağışda təkərləri fışıldayan bir avtomobilin səsi qarşı tərəfin səsini eşitməyə qoymurdu).

– Başa düşmədim.

Taksi onu görmüşdü. Sürəti azaldıb yolun əks tərəfinə azacıq palçıq sıçradaraq dayandı. Avtomobili görüb ona tərəf qaçmaq istəyən adam Villin taksini ondan əvvəl tutduğunu görüncə ümidsizcəsinə sürəti azaltdı. Onu gizli bir zəfər duyğusu bürüdü.

– Kalliyə de ki, kağızları hazırlayıb mənim masamın üstünə qoysun. On dəqiqəyə oradayam, – deyə dilləndi.

O hər iki tərəfə baxıb, sonra başını aşağı salaraq taksiyə tərəf cəld bir neçə addım atdı. "Blackfriars"[1] sözü düz dilinin ucuna gəldi. Yağış yaxalığı ilə köynəyi arasında süzülürdü. Piyada az yol olsa, ofisə çatana kimi su içində olacaqdı. Gərək katibini başqa bir köynək gətirməyə göndərsin.

"Martin gələnə kimi özüm bir şey fikirləşməliyəm".

Avtomobilin ucadan siqnal verməsiylə Vill başını qaldırdı. O, qarşısında duran taksinin parıldayan qara qapısını gördü. Sürücü pəncərəni aşağı saldı və Vill elə öz dayandığı yerdə nə olduğunu anlamadığı və ona tərəf tam sürətlə gələn bir şey gördü. Qaçmaq heç cür mümkün deyildi. O, əllərini çaşqınlıq içində açanda "Blackberry" yerə düşdü. Qəfil bir qışqırtı qopdu, bu, bəlkə də, onun öz qışqırtısıydı. Son gördüyü şey dəri əlcək, kaska altında üz və gözlərinə yansımış şok idi. Sanki partlayış baş vermiş və hər şey param-parça olmuşdu.

Və sonra heç nə...

---

[1] Londonun mərkəzi hissəsində yer